# İstiqlal mübarizəsinin şanlı səhifəsi

***Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından 104 il keçir. Bu münasibətlə Azərbaycan Turizm və Menecment Universitetində "Müsəlman Şərqində ilk parlamentli respublika" adlı hibrid formada tədbir keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.***



ATMU-nun rektoru İlham Mədətov tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir. Tale elə gətirib ki, Azərbaycan bir əsrdə iki dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq imkanı qazanıb. 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyəti xarici müdaxilə, daxili çəkişmələr, beynəlxalq təminatın olmaması səbəblərindən cəmi 23 ay yaşayıb. İkinci tarixi şans isə 73 il sonra yaranıb. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olunub. Azərbaycanın müstəqilliyi dünya dövlətləri tərəfindən tanınıb.

Rektor Müstəqillik Günü haqqında Azərbaycan Respublikasının 15 oktyabr 2021-ci il tarixli qanununa əsasən, mayın 28-nin ölkəmizdə Müstəqillik Günü kimi qeyd olunduğunu xüsusi vurğulayıb. İ.Mədətov "Azərbaycan bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın qüdrətli dövlətlərindən birinə çevrilib. Regionda irimiqyaslı layihələr Azərbaycanın iştirakı və razılığı olmadan həyata keçirilmir" – sözləri ilə çıxışını tamamlayıb.

Azərbaycan Demokratik Cümhuriyyətinin yaranmasının 104 illiyi münasibətilə keçirilən tədbirdə tarix elmləri doktoru, professor Məhərrəm Zülfüqarlının, dillər kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Ağaverdi Xəlilovun, ATMU TGT sədri Rəşid Məmmədovun məruzə və çıxışları iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Tədbir Universitetin "Sosial iş" ixtisasının birinci kurs tələbəsi Vüsal Nəsirlinin ifasında Məmməd Arazın "Səninləyəm" şeiri ilə başa çatıb.

***Z.BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 5 iyun.- S.6.